

# Güləşin ən pozitiv qızı

## “Fərqi yoxdur, güləşlə məşğul olur, ya da qaydasız döyüşlə, qadın, hər bir halda qadındır”

**Sahib**

**Cari olimpiya dövrünün mundialları güləşçilərimiz üçün uğurlu olmadı. Sadəcə, iki ”qızıl” və bir o qədər də olimpiya lisenziyası pəhləvanlarımıza bəslənən etimadın heç minimum qarşılığı da deyil. Belədə, Avropa çempionatlarında əldə edilən nəticələrlə təsəlli tapmalıyıq. II Avropa Oyunlarını da nəzərə alsaq, 4 qitə yarışında üst-üstə 49 medal, razılaşaq ki, kifayət qədər böyük göstəricidir.**

Elə ötən ilin mayında güləş mərkəzi Dağıstanın paytaxtı Kaspiyskdə keçirilən Avropa çempionatında 18 medal qazanan komandalarımız, tarixi maksimuma nail olmuşdu. Xatırladaq ki, ümumilikdə 30 çəki dərəcəsinin dördünü ilk, beşini ikinci, doqquzunu isə ”bürünc” pillədə bitirib, medal sayına görə, ən yaxşı nəticəmizi müəyyənləşdirmişdik.

Sözügedən qitə yarışı ilə bağlı bir məqam var idi ki, bunu güləş həvəskarları yaxşı xatırlayar. Karyerasında ilk dəfə böyüklər arasında yarışda fərqlənən ağır çəkili qadın pəhləvanımız, olduqca səmimi, emosional sevinc anları ilə marağa səbəb olub, sosial şəbəkələrdə bir xeyli izlənmə sayı yığmışdı. Odur ki, diqqətiniz bizdə olsun, indi həmin xanımdan geniş söhbət açacağıq.

### HƏR AİLƏDƏ BİR GÜLƏŞÇİ, ONLARDA İSƏ...

Əliyeva Səbirə Allahverdi qızı 25 sentyabr 1994-cü ildə Bakının Buzovna qəsəbəsində, çoxuşaqlı, idman ənənəsi olan ailədə doğulub. Atası gəncliyində güləşlə məşğul olub, özü ilə yanaşı, qardaşları və bacısı İranə də pəhləvanlıq təcrübəsi yaşayıb. 15 yaşında güləşə gələn Səbirə, bunadək üç il ciu-citsu ilə məşğul olub. Dediyinə görə, ölkədə ən qabaqcıl idman növünə keçməsində əsas rolu atası oynayıb. Hətta ümumiyyətlə, idmana marağının olmadığını, peşəkar güləşi isə heç ağlının ucundan da keçirmədiyini, sadəcə, atasının istəyinə qarşı çıxmamaq üçün bu addımı atdığını qeyd edir. Lakin elə ilk cəhdlərində cə qazandığı qələbələr, ardıcıl xarici səfərlər sayəsində onda getdikcə maraq oyanıb. Belə ki, 2010-cu ildə yeniyetmələrin Azərbaycan birinciliyin qalibi olan Səbirə, iki il sonra Bakıda keçirilən dünya çempionatında da fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

**Portreti**

**İllər, on illər ötsə də, bəzi insanlar heç dəyişmir. Zaman onların yanından eləcə, su kimi axıb keçir. Yeddi il əvvəl Bakıda dünya çempionluğunu qeyd edən 17 yaşlı xanım necə həyatdolu, uşaq saflığına sahib idisə, indi də elədir, iyirmi il sonra da bu cür qalacaq. Lakin karyera yerində saya bilməz. Yaxın dörd-beş il ərzində bitirmək haqqında düşünmədiyi idman həyatında, onu, hələ çox sınaqlar gözləyir.**

### "ƏN"LƏR ARASINDA

Səbirə, Azərbaycan qadın güləşində yerli məktəbin nümayəndələri arasında ən titullulardandır. 2013-cü ildə Makedoniyada gənclərin Avropa çempionu, Bolqarıstanda dünya üçüncüsü, növbəti il isə Xorvatiyada dünya çempionu olub. 2015-ci ildə gənclərdə ikinci dəfə Avropanın ən yaxşısı ünvanına yiyələnibsə, Braziliyada gənclər arasında dünya çempionatında növbəti (gümüş) medalını boynundan asaraq, bu yarış üzrə kolleksiyasını tamamlayıb. Ölkə daxilində keçirilən nüfuzlu yarışlara gəlincə, Əliyeva, 2017-ci ildə baş tutan IV İslam Həmrəylik Oyunlarının gümüş mükafatını qazanıb. Ümumiləşdirsək, o, göstəricilərinə görə, yerli məktəbin yetirmələri arasında yalnız Avropa çempionu və dünya ikincisi Sona Əhmədlidən geri qalır. Kaspiyskdəki nailiyyəti isə əslən azərbaycanlı xanımların olimpiya çəki dərəcələri üzrə qitəmiqyaslı yarışda qazandığı ilk medal kimi tarixə düşüb.

2019-cu ildə o, hər üç böyük yarış üçün müəyyənləşən heyətdə yer alsa da, heç birində mükafatçılar sırasına düşə bilmədi. Belə ki, apreldə Rumıniyada keçirilən qitə çempionatının ilk görüşündə belaruslu rəqibini 5 xallıq fərqlə üstələyən Əliyeva, 1/4 finalda ötən ilin analoji yarışında məğlub etdiyi macar güləşçiyə yenildisə, iyunun sonlarında ”Minsk2019” II Avropa Oyunlarında əvvəlcə Yunanıstan və Böyük Britaniya təmsilçilərini böyük üstünlüklə yenib, sonradan Almaniya və norveçli həmkarlarına uduzaraq, beşinci nəticə göstərdi. Sentyabrda Qazaxıstan paytaxtı Nur-Sultanda təşkil olunan Tokio olimpiadasına lisenziya xarakterli dünya çempionatı isə onun üçün iki görüşdən ibarət oldu. 1/16 finalda cənubi koreyalı rəqibini 5-2 hesabı ilə məğlub edən Səbirə, almaniyalı dünya çempionuna müqavimət göstərə bilmədi - 0:10. Rəqib finala yüksələ bilmədiyindən, həmyerlimizin medal və lisenziya şansı qalmadı.




### İLK OLA BİLƏR

Əfsanəvi Mariya Stadnikin lideri və hazırda yeganə lisenziya sahibi olduğu qadın güləşi yığmamızın ”Tokio2020” üçün qarşıya qoyduğu minimum hədəf üç lisenziyadır. Ötən olimpiada ilə müqayisədə iştirakçı sayının azaldığını nəzərə alsaq, bu missiyanı yerinə yetirmək bir xeyli çətin olacaq. DÇ-dən sonra Rioya üç təsnifat yarışı vardısa, Tokioya yollanmaq üçün, sadəcə, iki şans qalıb. Martın 19-dan 22-dək Macarıstanda Avropa, aprelin 30-dan mayın 3-dək Bolqarıstanda dünya təsnifat turniri keçiriləcək. Hər iki yarışda yalnız finalçılar Yaponiya paytaxtına yolla biləcək. Odur ki, Əliyeva və onun komanda yoldaşlarının üzərindəki həyəcan, məsuliyyət sandığımızdan da çoxdur. ”İlk şansdan olmasa da, ikincidə lisenziya qazanacağam” deyir, Səbirə.



Yeri gəlmişkən, onun qazanacağı olimpiya lisenziyası Azərbaycanın güləş tarixinə düşə bilər. Çünki hər üç olimpiadada (Pekin, London və Rio), bir qayda olaraq, legioner xanım güləşçilərlə təmsil olunmuşuq. Belə ki, hamısında ukraynalı Mariya Stadnik heyətdə yer alıbsa, iki halda belaruslu Yuliya Ratkeviç, hərəsi bir dəfə olmaqla isə rusiyalı Yelena Komarova, latviyalı Olesya Zamula və Stadnikin həmyerlisi Nataliya Sınışin ölkəmizin idman şərəfini qoruyub.

### TƏLƏSMƏK OLMAZ!

”Daim harasa tələsirəm, bu, mənim ən mənfi cəhətimdir” deyən Səbirə, elə güləşən zaman da təmkinini qorumaqda çətinlik çəkir. Vaxtından əvvəl qələbə qazanmaq cəhdləri onu bəzən istəyinə çatdırsa da, bəzən gedişdə, əlverişli üstünlük yaxaladığı görüşü uduzmasına səbəb olur. Başa düşür ki, təsnifat yarışlarında bu səhvlər bağışlanmayacaq. Dördilliyin ən möhtəşəm yarışına yollanacaq 16 xoşbəxt sırasına düşmək üçün maksimum soyuqqanlı olub, nəzarəti sonadək əlində saxlaması lazımdır.

### BACI PAYI, ATANIN QADAĞASI

Medalsız qalanda ruh düşkünlüyü yaşayır, hətta idmanı buraxmaq fikrinə düşür. Lakin ata və bacısının dəstəyi sayəsində toparlanıb, ikiqat əzmlə çalışmağa davam edir. Səbirə, yeniyetmələr arasında Azərbaycan çempionu olan böyük bacısı İranəni ikinci məşqçisi hesab edir: ”Adətən yarışa bir həftə qalmış bütün iştirakçılar müəyyənləşir. Aralarında yeni adlar varsa, mütləq kəşfiyyat aparıram. Püşkatmadan sonra bacım ilk və digər potensial rəqiblərimin əvvəlki görüşlərinin videogörüntülərini mənə göndərir. Birgə müzakirə aparır, güclü-zəif tərəflərini təkrar-təkrar nəzərdən keçiririk. Ümumiyyətlə, bacımın üzərimdə haqqı danılmazdır”.

Sosial şəbəkələrdən istifadə etmir. Sadə, internetə çıxışı olmayan mobil telefon işlədir. Bu, atasının tələbidir: ”Atam məşqlərimə, davamiyyətimə çox diqqətlidir. Düşünür ki, internet fikrimi yayındırır. Haqsız da sayılmaz (gülür). Sadəcə, xaricə gedəndə özümlə smartfon götürməyə icazə verir”.

### "AİLƏ QURACAĞIM ADAM DA BELƏ OLMALIDIR"

Azərbaycanda güləş hər nə qədər çox sevilsə də, qızların bu idman növü ilə məşğul olmasına qarşı münasibət birmənalı deyil. Bəli, sirr deyil ki, əksəriyyət pəhləvanlığın, qadın təbiətinə yad olduğunu düşünür. Səbirə, bu stereotipi qıran xanımlarındandır. Genetik xüsusiyyətlərinə görə, bir xeyli cüssəli olan Əliyeva, xarakter baxımından olduqca pozitiv, mülayim, mərhəmətli biridir. Bir sözlə, çöhrəsindən təbəssüm heç vaxt əskik olmaz. Bununla bağlı ünvanladığımız suala cavabı da maraqlıdır: ”Fərqi yoxdur, güləşlə məşğul olur, ya boks, ya da qaydasız döyüşlə, qadın hər bir halda qadındır. Güləş qadını əskiltmir, əksinə, ucaldır. Həyata qarşı daha dirənişli edir. Heç bir halda sınmamağı, toparlanıb, daha böyük səylə yola davam etməyi öyrədir. Mən həyatı doya-doya yaşayan, insanları, bütün canlı aləmi sevən biriyəm. Ailə quracağım adam da mütləq belə olmalıdır”.

Xarakterinin formalaşmağında idmanla yanaşı, mütaliənin də rolunu vurğulayır. Dünya ədəbiyyatından bir xeyli müəllifin əsərləri ilə tanışdır, qızımız.

### GÜDAZA GEDƏN BARSOVKALAR, TƏKƏBBÜRLÜ RUS QIZIN AQİBƏTİ

İdmançılar mütəmadi səfərlərə gedir, dünyanı gəzirlər. Hər səfər də bir xatirədir. Bəs, görəsən, Səbirənin ən yaddaqalan xatirələri hansılardır?

- Yaddaşsızlıqdan əziyyət çəkirəm deyə, hər yerdə nəsə qoyub gəlirəm. Çox vaxt da itən, barsovkalarım olur (gülür). Əsas xatirələrim 2014-cü ildə Xorvatiyada keçirilən gənclər arasında dünya çempionatı ilə bağlıdır. Final öncəsi həmin ilin Avropa çempionu olan rus rəqibim mənə yaxınlaşıb, özündənrazı tərzdə halımı soruşdu. Baxışlarından hiss edirdim ki, mənə yuxarıdan aşağı baxır, udacağından əmindir. Heç fikir vermədim, çıxıb rahat uddum. Görüşdən sonra onun komanda yoldaşı mənə dedi ki, artıq qələbəsini hansı rəqslə qeyd edəcəyini də müəyyənləşdirib, özü üçün bunun məşqini edirmiş. Üstəlik, həmin DÇ-də Solmaz Həşimzadə də medal qazanmışdı. Üçüncü yeri çox çılğın şəkildə, göz yaşları ilə qeyd edirdi. Ona baxıb, ondan betər ağladım. Heç öz qələbəmə o qədər sevinməmişdim”.

